# *Liviya nümayəndəsi:* "İqlim dəyişikliyindən ən çox zərərçəkən ölkələri dəstəkləməliyik"

**"Mən COP konfranslarında mütəmadi iştirak edirəm. COP29 konfransı yüksək səviyyədə təşkil olunub. Burada dünyanın bir çox ölkəsindən olan liderlər, ekspertlər, nümayəndələr iştirak edirlər".**

Bu barədə AZƏRTAC-a açıqlamasında "Climate Action Network" təşkilatının nümayəndəsi Semi Almabruk deyib.

O qeyd edib ki, bu konfransda müxtəlif ölkələrin nümayəndələri bir-biri ilə öz təcrübələrini bölüşür, danışıqlar aparır, əməkdaşlıqlar qururlar: "Verilən vədlər söz olaraq qalmamalı, biz onları icra etməliyik. Xüsusilə iqlim dəyişikliyindən ən çox zərər çəkən ölkələri dəstəkləməliyik. Dünyada hazırda çox sayda təbii fəlakətlər baş verir, mənim öz ölkəm Liviyada da. Çox ölkə var ki, onlarda lazımi infrastruktur yoxdur. Mənim bu konfransdan xoş gözləntilərim var. Dünya indi kritik vəziyyətdədir. Hazırda insanlar iqlim dəyişmələrinin zərərləri barədə daha çox məlumatlıdırlar. Biz birgə səylər nəticəsində bu problemin öhdəsindən gəlməliyik".

---

Azərbaycan.- 2024.- 17 noyabr (№ 253).- S.7.